# TRİNOLA® 2

## KLİNKERİN ÜYÜDÜLMƏSİNİ İNTENSİVLƏŞDİRƏN VƏ HİDROFOBLUQ (su qovuculuq) YARADAN SEMENT QATQISI




**Məhsul haqqında**
Hər növ sement istehsalında istifadə edilən, istehsal məhsuldarlığını artıran və yüksək keyfiyyətli sement istehsalına imkan verən, klinkerin üyüdülməsini intensivləşdirən kimyəvi sement qatqısıdır.

**İstifadə sahələri**
• adi potlandsement istehsalında;
• müxtəlif çeşidli (plastikləşdirilmiş, hidrofob, turşuyadavamlı, əlvan, tezbərkiyən və s.) portlandsement istehsalında;
• hidravlik yapışdırıcı maddələrin (hidravlik əhəng və romansement) istehsalında.

**Üstünlükləri**
• istehsal məhsuldarlığını artırır;
• üyütmə xərclərini azaldaraq enerji istehlakına qənaət edir;
• hava seperatorunun məhsuldarlığını artırır;
• sementin ilk və son müqavimətlərini 15-20% artırır;
• sementin su tələbatını 2%-dək azaldır.

**İstifadə qaydaları**
***Tətbiqi.*** Trinola 2 məhsulunu dəqiqləşdirilmiş (elektron) tərəzi ilə çəkdikdən sonra istifadə edin. Tövsiyə olunan miqdarda qatqını klinker dəyirmanının I və ya II bölümündə sistemə, ya da birbaşa klinkeri sistemə aparan transportyorun üzərinə damcılatmaqla istifadə edin.

**Texniki göstəricilər**

| | |
|---|---|
| Rəngi | qəhvəyi |
| Sıxlığı | 1.14 kq/l |
| Xlor miqdarı | 0.1 % |
| Qablaşdırma | 10 kq-lıq bidon, 200 kq-lıq çəllək, 1000 kq-lıq fıçı, xüsusi çənləri olan maşınlar |

**Sərfiyyat**
1 ton sement istehsalı üçün 0,4-2,0 kq istifadə oluna bilər. İlkin laboratoriya tədqiqatlarına əsasən sərfiyyat dəyişə bilər.

**Saxlama müddəti və qaydası**
+5$^0$C - +30$^0$C temperaturda açılmamış qablarda, quru şəraitdə 12 ay saxlanıla bilər.

**Xəbərdarlıqlar**
• məhsuldan istifadə zamanı işin və işçinin təhlükəsizliyi qaydalarına riayət olunmaqla, müvafiq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edin;
• dəriyə və gözə düşərsə dərhal su ilə yuyun;
• məhsulun udulma halı baş verərsə dərhal həkimə müraciət edin.

**Zəmanət və texniki dəstək**
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!